# "Yer kürəsi insan üçün yararsız məkana çevrilmək təhlükəsi qarşısındadır"

## Azərbaycanlı professordan "Taclı kabus"a fərqli baxış



Fuad Vəliyev

Bakı Ali Neft Məktəbinin professoru

əvvəli ötən sayımızda

### Geni dəyişdirilmiş alma

*Atom-nüvə fizikası, biologiya, kimya sahəsində əldə edilmiş inqilabi elmi nailiyyətlər təbiətin bir çox sirli qapılarını açdı, baxmayaraq ki, bu qapıların bəzilərinin üzərində 'Daxil olmaq təhlükəlidir!' xəbərdarlığı yazılmışdı. Bir sıra elmi istiqamətlər, o cümlədən gen mühəndisliyi, klonlaşdırma, müəyyən bioloji-tibbi problemlərin həlli üçün prinsipcə yeni imkanlar yaratsa da, bütövlükdə, insanın gələcəyi üçün çox təhlükəli, nəticə etibarilə şərə xidmət edəcək əməliyyatlara çevrildi.*

*Gen mühəndisliyi üzrə alınmış nəticələr artıq elə bir həddə çatmışdır ki, sanki ağıldan bəlaya düçar olmuş İnsan qorxunc bir uçurumun kənarındadır və hər hansı ehtiyatsız hərəkət, yalnış qərar və ya manyak xisləti alimin, şeytani güc mərkəzlərinin məqsədyönlü aksiyası onu bu uçuruma yuvarlada bilər.*

Gen mühəndisliyi üzrə əldə edilmiş elmi uğurlar bir tərəfdən müəyyən tibbi-bioloji nailiyyətlər üçün böyük imkanlar yaratsa da, digər tərəfdən, süni mutantların kütləvi şəkildə yaranması, mutant genlərin hər-hansı səbəbdən nəzarətdən çıxması insanlığın əsas genetik kodunun fəsadlı struktur dəyişilməsinə və son olaraq, bütövlükdə insan genofondunun dağılması kimi bioloji fəlakətə, insanlığın bütövlükdə məhvinə səbəb ola bilər.

Əlbəttə, gen mühəndisliyini qadağan etmək çıxış yolu deyil. Əslində, bu, heç mümkün də deyil. Elmi tərəqqinin qarşısını kəsmək, onu müəyyən qadağalar çərçivəsinə salmağa heç zaman, heç kəs müyəssər olmamışdır. Nəticə etibarilə, çıxış yolu yalnız və yalnız elmi axtarışların bütövlükdə və xüsusi halda, gen mühəndisliyi üzrə tədqiqatların mənəvi imperativlər çərçivəsində aparılmasındadır.

Lakin bu məsələdə illüziyaya qapılmağa dəyməz. Təəsüf ki, bu gün bəşəriyyətin, elmə mənəvi nəzarəti təmin edəcək, ümumi əxlaqi kodeksi, hüquqi-etik idarə və təsir mexanizmi mövcud deyil.

*'Molekulyar biologiyanın bugünki inkişaf tempi məni həm heyran edir, həm də qorxudur'. Bu sözlər DNT molekulunun quruluşunu kəşf etmiş, Nobel mükafatı laureatı C.Uotsona (James Dewey Watson) məxsusdur. Təbiətin ilahi düzəninə insanın öz, prinsipcə məhdud elmi ilə müdaxilə etməsi, ilkin olaraq, pozitiv, arzuolunan nəticələr verə bilər. Lakin təbiət hər bir belə süni, ilahi dizaynı, qanunauyğunluqları korrektə etmək, dəyişdirmək, 'modernləşdirmək' cəhdlərinə sonsuz sayda reaksiyalar verir. Birinci reaksiya dalğası müsbət olduğu halda, ikinci dalğa insan üçün zərərli, sonrakı dalğalar isə fəlakətli ola bilər.*

*Kənd təsərrüfatı bitkilərinin genlərinə müxtəlif heyvanların genlərini yeritməklə alınan nəticələr ilk nəzərdə müsbətdir – bitkilər tez böyüyür, ziyanvericilərə qarşı dayanıqlı olur, məhsuldarlıq artır və ümumiyyətlə, bəşəriyyətin ərzaq qıtlığı probleminin çözülməsinə kömək edir. Lakin heç kəs deyə bilməz ki, geninə əqrəb geni yeridilmiş almanı yeyən insanın özünün və nəslinin fiziki, fizioloji, bioloji, psixiki aqibəti necə olacaq...*

### Elektromaqnit Toru

Yer kürəsi bir neçə nəsil mobil internet sistemlərinin elektromaqnit torunda şüalanmaqdadır. İndi bütün dünya 5G beşinci nəsil mobil rabitə sisteminə keçmək üzrədir. Daha böyük sürətlə, daha intensiv informasiya ötürmə imkanlarına malik, məişətdən hərbə qədər, bir çox sahələrdə tədbiq oluna biləcək, elmi-texniki cəhətdən mükəmməl rabitə və total kontrol-nəzarət sistemi...

2018-ci ildə Amerikanın "Verizon Communications" şirkəti 5G standartında mobil şəbəkəni işə qoşdu və artıq dünya üzrə bu sistemin ötürücü antenlərinin çox sıx şəbəkəsi inşa edilməkdədir. Yer orbitinə bu şəbəkəyə xidmət edəcək minlərlə peykin buraxılması nəzərdə tutulur.



Lakin millimetrik diapozonda yüksək tezlikli dalğaların insan orqanizminə, ətraf mühitə hansı təsir göstərəcəyi elmi cəhətdən bəlli deyil. Dünyanın bir çox alimləri, ictimai xadimləri həyəcan təbili çalırlar: 5G şüalanması insana, canlı orqanizmlərə mutagen, kansorogen təsir göstərə, hüceyrə membranını, DNT molekulunu, bütövlükdə genofondu, immun sistemini zədələyə, reproduktiv, nevroloji fəsadlara səbəb ola bilər.



Bu təsirlər elmi cəhətdən öyrənilməyincə, bioloji təhlükəsizlik zəmanəti olmayınca 5G-ni tətbiq etmək olmazg Lakin bu qlobal layihənin bəlli və gizli müəllifləri bu etirazlara etinasızdır – 5G hörümçək toru dünyanı sarmaqdadırg 5G-nin bioloji təhlükəsizlik zəmanəti yoxdur. Bəs bu şəbəkənin şeytani məqsədlər üçün istifadə olunmayacağına zəmanət varmı?

### Qolem

""Taclı kabus" nədir"?, "Haradan peyda olub, məramı nədir"?, "Təbiətin qisasıdırmı?", "Laboratoriyadan çıxmış Qolemdirmi?", "Bakterioloji savaşın anonsudurmu?", "Qiyamət gününün müjdəçisidirmi?" cavabsız suallarg Lakin bunu qətiyyətlə demək olar ki, bu kabus insanın özünün yaratdığı dərin mənəvi- ekoloji böhranın təzahürü, onun günahlarının təcəssümü, şeytani əməllərinin qanunauyğun nəticəsidir.

...Belə bir rəvayət var ki, orta əsrlərdə Lyov adında bir kahin Qolem adlı bir nəhəng məxluq yaradır və ona can verir. Lakin mənəviyyatla bağlı zəruri təlimatı olmayan Qolem tam sərbəstlik qazanandan sonra dağıdıcı bir məxluqa çevrilir, böyük fəsadlara səbəb olur və Lyov məcbur qalıb, onu məhv edir.

*Məyusedici faktdır ki, indiki zamanda yaradılan hər hansı Qolem artıq onu yaradan insanın ixtiyarında olmadığından, məhv edilməsi də mümkün deyil. Müasir Lyovlar bu xüsusiyyəti nəzərə alaraq, cəmiyyət, insanlıq qarşısında mənəvi məsuliyyətlərini dərindən dərk etməli, 'elm elm', 'yenilik xatirinə yenilik' şüarları ilə mənəviyyatsız 'Qolemlər' törədə biləcək mizantrop əməllərdən çəkinməlidirlər.*

### Pandora qutusu

Elmi prosesi tam şəkildə idarə etmək, onun nəticələrinin tətbiqini kontrol altında saxlamaq, tədqiqat işlərini şeytani deyil, humanistik məqsədlərə yönəltmək, elmin son yüz ildə aşkar etdiyi möhtəşəm enerji mənbələrinin insanın rifahı naminə mütləq mənada istifadəsini təmin etmək mümkündürmü? Bu, insanı narahat edən imperativ və təəssüf ki, xeyli dərəcədə ritorik sualdır. Reallıq ondan ibarətdir ki, bu suala tam mənada müsbət cavab vermək mümkün deyil. Pandora qutusu açılmış və oradan çıxmış pisilkləri yenidən geriyə qaytarıb qapatmaq çox çətindir...

### Elm və mənəviyyat

Mənəviyyat həm sosial, həm də individual aspektlərin sintezidir və o, bir tərəfdən cəmiyyətdə formalaşmış əxlaqi normativlərlə müəyyən olunsa da, digər tərəfdən hər bir şəxsin daxili özününəzarət faktoru – vicdanı ilə müəyyənləşir.

Qlobal eko-enerji problemi, texnogen fəlakətlər, təbii kataklizmlər, yeni-yeni çeşidli kütləvi xəstəliklər, vəhşi təbiətin məhvi, iqlim dəyişikliyi, atom-nüvə, kimyəvi-bakterioloji kütləvi qırğın silahlarının yaranması və tətbiqi, canlılar üzərində genetik manipulyasiyalar, klonlaşdırma... – bunlar hamısı elmi-texniki nailiyyətlərin dini prinsiplərlə, ümumiyyətlə, mənəviyyatla təzad təşkil edən fəsadlarıdır.

Peyğəmbər (s) – "Allah bizi xeyir gətirməyən biliklərdən qorusun".

Atom-nüvə bombasının yaradılması və onun Hirosima və Naqasakidə tətbiq edilməsi, Çernopol və Fukusima partlayışları insanın nə qədər qorxunc bir perspektiv qarşısında olduğunu əyani şəkildə göstərdi. Aşkar oldu ki, sivilizasiyanın əsrlər boyu yaratdığı maddi və mənəvi dəyərlər, əldə olunmuş nailiyyətlər insanın yaratdığı elmi-texniki vasitələrlə bir anda məhv ola bilər. Elmə münasibətdə insanın heyranlığı, məftunluğu və məmnunluğu, bir məyusluq, nigarançılıq və təlaşla əvəz olundu. Məlum oldu ki, elm xoşbəxtlik, rifah verməklə yanaşı, müəyyən mənəvi çərçivələr daxilində məhdudlaşdırılmadıqda, qlobal fəlakətə apara bilər.

*Xirosimaya atılan və bir anda 200 min adamı məhv edən atom partlayışından sonra Albert Eynşteyn belə demişdi: 'Bu gündən belə, insanlığın taleyi onun elmi-texniki nailiyyətlərindən yox, onun mənəvi dayaqlarından asılı olacaq'.*

*Mənəvi təminatı olmayan Elm əyləci sıradan çıxmış, sürətlə hərəkət edən avtomobilə bənzəyir. Bu halda sürücünü – insanı kifayət qədər faciəvi aqibət gözləyir.*

*Əlbəttə ki, elmin inkişafını saxlamaq, cilovlamaq mümkün deyil və buna ehtiyac da yoxdur. Əksinə, bəşəriyyətin gələcəyi naminə elmin sürətli inkişafını təmin etmək lazımdır.*

Lakin dayanıqlı inkişaf yalnız elm və mənəviyyatın sinergetik birliyi sayəsində mümkündür. Mənəvi prinsiplərə söykənməyən, nəzarətsiz elmi-texniki tərəqqi dünyadakı qlobal prosesləri təhlükəli məcraya yönəltməklə insanı məhvə aparmaqdadır. Möhtəşəm elmi-texniki nailiyyətlərə sahib sivilizasiya həddinə çatmış bəşəriyyət eyni zamanda çox dərin mənəvi-ekoloji böhran içərisindədir.

Bu gün insan ekoloji fəlakət astanasındadır və bunun da əsas səbəbi müasir sivilizasiyanın mənəvi böhranıdır. Dünyanın təkcə fiziki deyil, həm də mənəvi entropiyası kəskin şəkildə artmaqdadırg

### İblisin andı

*Ölkələr, millətlər, tayfalar, dinlər, məzhəblərarası qanlı çəkişmələr bu gün daha təhlükəli şəkildə davam etməkdədir. Hərbi arsenallardakı atom-nüvə silahları, kimyəvi, bakterioloji silahlar Yer üzündəki bütün canlı aləmi, bəşəriyyəti də daxil, bir dəfə yox, yüz dəfələrlə öldürməyə qadirdir.*

*Adəmdən bu yana zülm, xəyanət, istibdad, haram, nadanlıq, fitnə, şər, yalan üzərində qurulmuş bütün böyük-kiçik qarşıdurmalarda İblisin dəst-xətti görünməkdədir. Bir zaman Allahın əmrinə asi olub, Adəmə baş əyməyən İblis haqlı olduğunu isbat etməyə çalışır.*

ardı gələn sayımızda